VLM AND PARTNERS

2023

# VLM AND PARTNERS HÜQUQ VƏ VERGİ FİRMASI

# Vüqar Məmmədov

***İdarəedici Partnyor***



VLM AND PARTNERS (**"VLM"**, **"Bizim Komanda"** və ya **"Biz"**) öz müştərilərinə peşəkar hüquq və vergi xidmətləri göstərir. VLM özündə uzun illər beynəlxalq və yerli müəssisələrlə çalışmış hüquqşünasların təcrübəsini ehtiva edir. Bizim niyyətimiz qabaqcıl beynəlxalq hüquq şirkətlərinin rəhbər tutduğu standartlara, keyfiyyət prinsiplərinə və etik qaydalara dayanan peşəkar fəaliyyət göstərməkdir.

VLM biznesin yenidən təşkili və islahatlar, korporativ hüquq, müqavilələr, ticarət, məhkəmə prosesləri, bank və maliyyə, layihələrin maliyyələşdirilməsi, dövlət-özəl sektor əməkdaşlığı, enerji, vergi və məşğulluq məsələləri sahəsində ixtisaslaşmış peşəkar şirkətdir.

VLM-in hüquqşünasları geniş çeşidli biznes sahələrində çoxsaylı mürəkkəb sövdələşmələrlə bağlı uğurlu məsləhət xidmətləri göstərir. Bizim hüquqşünaslarımız və məsləhətçilərimiz dünyada tanınmış aparıcı universitetlərin məzunlarıdır. Bizim komandamız ingilis, rus, türk, fransız və azərbaycan dillərində sərbəst danışır.

Bizim ən mühüm üstünlüklərimizdən biri də odur ki, biz müştərilərimizə göstərilən xidmətlərlə əlaqədar peşəkar fəaliyyət sığortası qarantiyası veririk.

VLM IFLR1000 tərəfindən tanınır və The Legal500 sıralamasındadır. Biz sadəlik və mükəmməlliyi qoruyuruq.

Biz Sizinlə əməkdaşlıq etməkdən qürur hissi keçirərik. Hər hansı bir sualınız yaranarsa, istənilən zaman vmammadov@vlm-az.com və ya +994 50 283 82 48 nömrəsi ilə əlaqə saxlamaqdan çəkinməyin.

Hörmətlə,

Vüqar



# MÜNDƏRİCAT


- Biznes sahələri
- Bizim əsas təcrübəmiz
- Bizim Komanda
- Təklif etdiyimiz xidmətlər
- Bizimlə əlaqə

# BİZNES SAHƏLƏRİ

Xidmətlərimizin ehtiva etdiyi biznes sahələri: →

- Aqrobiznes;
- Aviasiya və Aerofəza
- İstehlak Malları, Qida, İçki və Pərakəndə Ticarət
- Enerji (Bərpa olunan enerji də daxil olmaqla)
- Neft və Qaz
- Bank və Maliyyə
- Fintex
- Mehmanxanalar və İstirahət
- İKT və Telekommunikasiya
- İstehsalat və Ağır Sənaye
- Tibb və Əczaçılıq
- Özəl Müştəri Xidmətləri
- Dövlət-Özəl Tərəfdaşlığı
- Peşəkar Xidmətlər Sektoru
- Daşınmaz Əmlak və Tikinti



# BİZİM ƏSAS TƏCRÜBƏMİZ

Mürəkkəb daxili və xarici siyasət və tələblər, həmçinin tez-tez qanunvericilik dəyişiklikləri biznesin aparılmasını daha da çətinləşdirir. VLM-in peşəkar hüquqşünasları vergi və məsləhət sahəsində çalışan həmkarları ilə birlikdə müştərilərin fərdi tələbatlarını və vəziyyətlərini nəzərə alaraq onlara əsaslı məsləhətlər verirlər. Aşağıda hüquqi xidmətlərimizin qısa təsviri verilmişdir:

- Korporativ və Kommersiya hüququ
- Birləşmələr və satınalmalar, biznesin yenidən təşkili
- Hüquq, Vergi və Korporativ Araşdımalar
- Layihələrin maliyyələşdirilməsi
- İstehlak Bazarları
- Əqli Mülkiyyət
- Rəqabət və Satınalmalar
- Kapital bazarları
- Enerji, Neft & Qaz hüququ
- Əmək və Miqrasiya hüququ
- Maliyyə və Bank hüququ
- Mübahisələrin həlli, Arbitraj və Mediasiya
- Tam hüquqi autsorsinq
- Daşınmaz əmlak və tikinti
- Mövcud hüquqi tənzimləmələr
- Vergi və mühasibatlıq



# BİZİM KOMANDA



Vüqar Məmmədov
İdarəedici Partnyor

- Bir hüquqşünas və vergi mütəxəssisi olaraq enerji, maliyyə, bank, otel, istehlak bazarları və pərakəndə satış, istehsal kimi müxtəlif sahələrdə on yeddi ildən artıq təcrübəyə malik olan Vüqar, yerli və beynəlxalq müştərilər üçün zəruri bilik və təcrübəyə sahibdir. Vüqar Deloitte şirkətinin Azərbaycanda Hüquq Xidmətlərini qurmuş və uzun illər bu Xidmətlərə rəhbərlik etmişdir. Bundan əvvəl, Vüqar uzun müddət PwC şirkətində hüquq və vergi xidmətlərində çalışmışdır.

- Vüqar biznes və ticarət əməliyyatları, bizneslərin mürəkkəb birləşmə və satınalmaları, yenidən təşkil və konsolidasiyalar barədə məsləhətlər verir. O, əməliyyat və sövdələşmə sənədləşmələrinin hazırlanması, danışıqların aparılması, hüquqi araşdırmalar və sövdələşmələr zamanı vergi məsələlərinin diqqətə alınmasında peşəkar mütəxəssisdir.

- O, İsveçrə və Böyük Britaniyada müxtəlif xarici məhkəmə və arbitrajlarda, həmçinin Böyük Britaniyanın NCA (Milli Cinayət Agentliyi) təşkilatı üçün hüquq eksperti kimi fəaliyyət göstərmişdir.

- Vüqar 2022-ci ilin fevral ayında Shenzhen Beynəlxalq Arbitraj Məhkəməsinin (SCIA) arbitri təyin edilib.

- Vüqar PPP (dövlət özəl tərəfdaşlığı) layihələrində, eləcə də onların qeydiyyatı və idarə olunması, hüquqi rəylərin verilməsi, korporativ araşdırmalar və s. sahələrdə geniş yerli və beynəlxalq təcrübəyə malikdir. Əlavə olaraq, Vüqar müştərilərinə investisiyanın qorunması və təşviqi, beynəlxalq xüsusi hüquq kimi sahələrdə dəstək verir.

- Vüqar Niderlandda yerləşən və dünyanın qabaqcıl təhsil müəssisələrindən sayılan, Erasmus University Rotterdam-da Beynəlxalq Ticarət Hüququ üzrə magistr (LL.M.) dərəcəsinə yiyələnmişdir.

# BİZİM KOMANDA (DAVAMI)



İsmayıl Əliyev

Baş Hüquqşünas

- İsmayıl layihə maliyyəsi, bank, vergi, investisiyalar, təhlükəsizlik, maliyyə, biznes hüququ, ticarət və gəmiçilik hüququ, miqrasiya məsələləri, kommersiya müqavilələri və s. kimi sahələrdə güclü beynəlxalq hüquqi təcrübəyə malikdir.
- Ismayıl tikinti, daşınmaz əmlak, ərzaq, içki, nəqliyyat, əczaçılıq, aviasiya, otel sənayesi sahəsində və investisiya üzrə şirkətlərə maliyyə, korporativ, müqavilə, investisiya, əmək, əqli mülkiyyət, istehlakçıların hüquqları, ticarət, gəmiçilik və digər istiqamətlər üzrə hüquqi məsələlərdə konsultasiya prosesində iştirak edir.
- İsmayıl Böyük Britaniyanın London şəhərində yerləşən F&T Services Limited və Imran Khan and Partners hüquq firmalarında peşəkar təcrübə qazanıb.
- İsmayıl dörd ali təhsil dərəcəsinə yiyələnmişdir. Buraya Bakı Dövlət Universitetinin Hüquq üzrə bakalavr, Siti Universiteti Londonda hüquq üzrə bakalavr, London İqtisadiyyat və Siyasi Elmlər Məktəbində Menecment və Hüquq üzrə bakalavr və nəhayət London Kral Kollecində Beynəlxalq Biznes Hüququ ixtisası üzrə magistr dərəcələri daxildir.



Vüsalə Babayeva-Nəzirli

Baş Hüquqşünas

- Vüsalə bank və maliyyə, investisiya şirkətləri, qiymətli kağızlar, korporativ və kommersiya hüququ, beynəlxalq xüsusi hüquq, müqavilələr hüququ və digər sahələr üzrə ixtisaslaşmış yüksək peşəkar hüquq məsləhətçisidir.
- Vüsalə müştərilərə hüquqi və qanuni tələblərə riayət edilməsi, kapital bazarları, birləşmələr və satınalmalar, kommersiya hüququ, beynəlxalq münaqişə hüququ, sığorta qanunvericiliyi, müqavilələr, korporativ hüquq və digər sahələrdə dəstək göstərir. Vüsalə tikinti şirkətləri və bank olmayan kredit təşkilatları üçün müxtəlif lisenziya və icazələrin alınması ilə məşğuldur.
- Vüsalə Böyük Britaniyanın NCA-in (Milli Cinayət Agentliyi) dəvəti ilə Böyük Britaniyanın məhkəmələrində hüquqi ekspert kimi fəaliyyət göstərib. VLM-ə qoşulmazdan əvvəl, Vüsalə bank olmayan kredit təşkilatında hüquqşünas olaraq çalışmışdır.
- Vüsalə iki ali təhsil dərəcəsinə yiyələnmişdir. Buraya Bakı Dövlət Universitetinin Hüquq üzrə bakalavr (LL.B.) və Beynəlxalq Hüquq üzrə magistr (LL.M.) dərəcələri daxildir. O, azərbaycan, rus, ingilis və türk dillərini sərbəst bilir.

# BİZİM KOMANDA (DAVAMI)



## Sara Ağamalıyeva

### Baş Hüquqşünas

- Sara françayzinq şirkətində və hüquq firmasında hüquqşünas olaraq çalışdığı dövrdə hüququn bir sıra sahələrində geniş təcrübə qazanmışdır.
- During her three-year tenure as in-house lawyer, she was dealing with franchise agreement and related negotiations; preparation, and review of all types of sale, service, supply, lease, and any other commercial contracts; labor disputes; state registration of the changes in the constituent documents; and application for permits and licenses for the company. O, 3 illik şirkətdaxili korporativ hüquqşünas karyerası boyu françayzinq müqavilələri və əlaqədar danışıqlarla məşğul olmuş, hər növ alğı-satqı, xidmət, təchizat, icarə və digər kommersiya müqavilələrini hazırlamış və nəzərdən keçirmiş, əmək mübahisələrinin həlli, təsis sənədlərinə dəyişikliklərin qeydiyyatı və şirkət üçün lisenziya və icazə müraciətlərinin edilməsi proseslərinə yön vermişdir.
- O, yuxarıdakı hüquqi təcrübədən əlavə, beynəlxalq qeyri-hökumət və dövlət təşkilatlarında könüllü fəaliyyət göstərərək öz hüquqi, təşkilati və idarəetmə bacarıqlarını zənginləşdirmişdir.
- O, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının "Patentin Əsasları üzrə İxtisaslaşmış Kurs" və "Patent üzrə Təkmil Kurs"-unun sertifikatlarını əldə etmişdir.
- Sara Bakı Dövlət Universitetinin Hüquq üzrə Bakalavr və Əqli Mülkiyyət Hüququ üzrə Magistr, həmçinin Stokholm Universitetinin Beynəlxalq Kommersiya Arbitrajı Hüququ üzrə Magistr diplomlarına sahibdir. O, ingilis, fransız, rus, türk və Azərbaycan dillərində səlis danışır.



## Rəşad Məhəmmədzadə

### Baş Hüquqşünas

- Rəşad 2022-ci ildən bəri VLM-in hüquq komandasının üzvüdür. O, firmamıza qoşulmazdan əvvəl Sumqayıt Texnologiyalar Parkında çalışmış, bir sıra beynəlxalq QHT-lərdə idarəedici vəzifələr tutmuşdur.
- Rəşadın əqli mülkiyyət, korporativ hüquq, müqavilə hüququ, maliyyə bazarları və digər sahələrdəki bilik və təcrübəsi ona beynəlxalq və yerli müştərilərimizin bizneslərinin təsisi, onların Azərbaycan qanunvericiliyinə qüsursuz uyğunluğu, onların mürəkkəb transsərhəd tranzaksiyalarının icrası, müqavilə risklərinin azaldılması və hüquqi çətinliklərin öhdəsindən gəlmələrinə müntəzəm dəstək olmaq imkanı yaradır.
- O, e-ticarət brendləri, fintex şirkətləri, banklar, investisiya holdinqləri, neft-qaz bazarı iştirakçıları, habelə gündəlik tələbat malları, tibb və tikinti sektorundan şirkətlərə hüquqi problemlərin həlli və fəaliyyətlərini təhlükəsiz şəkildə davam etdirmələri üçün məsləhətlər vermişdir.
- Rəşadın hüquqi dəstəyi xüsusi müqavilələrin tərtibi və detallı hüquqi məsləhətlərdən savayı, müştərilərin inzibati məsələlərlə bağlı dövlət orqanları və təşkilatlarında təmsil olunmasını da ehtiva edir.
- Rəşad Bakı Dövlət Universitetinin Hüquq üzrə Bakalavr məzunudur. O, Azərbaycan, ingilis və türk dillərini bilir.

# BİZİM KOMANDA (DAVAMI)



Sücayət İsmayılova

Hüquqşünas

- Sücayət şirkətlərin qeydiyyatı və ləğvi, kommersiya müqavilələrinin tərtibi, miqrasiya proseslərinin idarə olunması, françayzinq müqaviləsi üzrə proseslərə nəzarət, danışıqların aparılması və mübahisələrin həlli sahələrində geniş təcrübəyə malikdir.
- Sücayət VLM komandasının üzvü olmazdan əvvəl Sankt-Peterburqda hakim köməkçisi kimi çalışmış və "1C"-nin Azərbaycan françyzı olan ICgroup.AZ-da hüquqşünas olaraq fəaliyyət göstərmişdir.
- Sücayət mülki hüquq və korporativ hüquq da daxil olmaqla, bir sıra hüquq sahələri üzrə konsultasiya xidməti göstərir. Onun vəzifələrinə müxtəlif növ müqavilələrin tərtibi, gözdən keçirilməsi və onlara dəyişiklik edilməsi, hüquqi yoxlama hesabatlarının hazırlanması, müştərilərə lisenziya və icazələrin qorunub saxlanılması kimi mövzularda dəstək göstərilməsi, hüquqi şəxslərin təsisi və yenidən təşkili, həmçinin iş və yaşama icazələrinin əldə olunması daxildir.
- Sankt-Peterburq Dövlət Dəniz Texniki Universitetinin Hüquq üzrə Bakalavr diplomuna malikdir. O, ingilis, rus, türk və Azərbaycan dillərini bilir.



Samir Şəfiyev

Hüquqşünas

- Samir VLM-in hüquq komandasının üzvüdür və Beynəlxalq Dəniz Hüququ, Mübahisələrin Alternativ Həlli və Enerji Hüququ sahələrində dərin biliyə malikdir. O, VLM-ə qoşulmazdan əvvəl Nyu-Yorkda Azərbaycan Respublikasının BMT-dəki Daimi Missiyası da daxil olmaqla, diplomatik missiyalarda iş təcrübəsinə yiyələnmişdir. Bundan əlavə, o, müxtəlif araşdırma sahələri üzrə müxtəlif konfranslarda iştirak etmişdir. Samir, həmçinin beynəlxalq müqayisəli hüququn müasir problemlərinə fokuslanan bir QHT-də rəhbər vəzifə tutur.
- Samir VLM-də əsasən, bizim müqavilə hüququ, mübahisələrin həlli, dəniz hüququ və enerji hüququ sahəsində fəaliyyətlərimizə öz töhfələrini verir. Samir özünün mükəmməl nəzəri bazası ilə komandamıza beynəlxalq xüsusi hüquqla əlaqədar çox mürəkkəb məsələləri həll etməkdə yardım edir.
- Samir ingilis, fransız, rus, türk və Azərbaycan dillərində səlis danışır.
- O, Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda (MGIMO) Hüquq üzrə Bakalavr, Pensilvaniya Dövlət Universitetində (PennState) Beynəlxalq və Müqayisəli Hüquq üzrə Magistr və Qlazqo Universitetində (UofG) Beynəlxalq Hüquq və Beynəlxalq İqtisadi Təhlükəsizlik üzrə Magistr dərəcələrinə yiyələnmişdir.

# BİZİM KOMANDA (DAVAMI)



## Sevda Rəhimli

**Baş Vergi Mütəxəssisi**

- Sevdanın təcrübə dairəsinə vergi qanunvericiliyinə riayət, mühasibatlıq və uçot xidmətləri, əmək haqqı hesablanması, hesabatların verilməsi, biznesdə bütün maliyyə və mühasibatlıq proseslərinin nəzarətinin təşkili və, həmçinin, müəssisələrə vergi yoxlamalarında dəstək daxildir. O, gömrük sahəsində, o cümlədən gömrük bəyannamələrinin hazırlanması və gömrük məsələlərində məsləhətlərin verilməsi sahəsində böyük təcrübəyə malikdir.
- Sevda öz vergi və mühasibatlıq karyerasını beynəlxalq konsaltinq şirkəti olan Deloitte Azərbaycanda müştərilərə vergi qanunvericiliyinə nəzarət və mühasibatlıq xidmətləri verməklə başlamışdır.
- Daha sonra Sevda Engin LTD və Ceylan kimi Azərbaycanın ən böyük distribusiya şirkətlərində maliyyə, vergi və mühasibatlıq sahəsində böyük təcrübə qazanmışdır.
- Sevda iki ali təhsil dərəcəsinə yiyələnmişdir. Buraya Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin Maliyyə üzrə bakalavr və Qafqaz Üniversitetinin Maliyyə Menecmenti üzrə magistr dərəcələri daxildir.



## Ramin Abbasov

**Baş Vergi Mütəxəssisi**

- Ramin vergi komandamızın bir parçası olaraq vergi və mühasibatlıq fəaliyyətimizə öz töhfəsini verir. Onun keçmiş təcrübəsi Nexia EA Azərbaycanda tutmuş olduğu baş mütəxəssis vəzifəsini də ehtiva edir. O, konsultasiya sektorunda uğurlu karyerasından sonra Azərbaycanda quşçuluq, akvakultura və orqanik qida sahələri üzrə fəaliyyət göstərən nəhəng bir holdinqdə, o cümlədən, bir broker firmasında baş mühasib vəzifələri tutaraq onların qüsursuz maliyyə əməliyyatlarının icrasını təmin etmişdir. Ramin 2022-ci ildən etibarən VLM-də vergi və mühasibatlıq xidmətlərinin göstərilməsinə cəlb olunmuşdur.
- Raminin fəaliyyətinə vergi və maliyyə əməliyyatlarının icrası, idarə olunması və auditi, vergilərin hesablanması, vergi bəyannamələrinin və hesabatlarının hazırlanması, mal və materiallarının inventarlaşdırılması, gömrük bəyannamələrinin tərtibi və vergi yoxlamalarının həyata keçirilməsi də daxildir. O, müştərilərə vergi və maliyyə risklərinin minimallaşdırılması və xərclərin tanınması metodlarının müəyyən edilməsi üzrə bələdçilik edir.
- Ramin ikiqat vergitutma məsələləri üzrə geniş bilik və təcrübəsi ilə bizneslərə ikiqat vergitutmadan azad olmağa və ikiqat vergitutmanın ləğvi barədə müqavilələrin müddəalarından yararlanmağa kömək edir. O, müştərilərə, həmçinin mühasibat uçotunun qurulması və aparılması üzrə tam dəstək göstərir. Ramin aqrobiznes, IT, istehsalat və digər sektorlardan olan müştərilərə effektiv şəkildə xidmət göstərmişdir.
- Ramin Xəzər Universitetində Maliyyə üzrə Bakalavr dərəcəsinə yiyələnmişdir.

# BİZİM KOMANDA (DAVAMI)



İlhamə Quliyeva

Baş Vergi Mütəxəssisi

- İlhamə maliyyə və vergi sahələrində uzun illərə dayanan təcrübəsi ilə VLM-də baş mütəxəssis kimi fəaliyyət göstərir. Onun erkən karyerası müxtəlif beynəlxalq QHT-lərdə və Azərbaycanda nəhəng bir geofizika şirkətində mühasib kimi fəaliyyətini əhatə edir. PwC Azərbaycanda 13 il boyunca maliyyə rəhbəri olaraq çalışan İlhamə öz maliyyə təcrübəsini burada zənginləşdirmişdir.
- O, büdcə planlaşdırılması, maliyyə hesabatları, əmək haqqı hesablanması, gündəlik maliyyə əməliyyatlarına nəzarət, maliyyə uyğunluğu və hesabatların avtomatlaşdırılması sahələrində özünəməxsus biliyə və nou-hauya malikdir. İlhamənin təcrübəsi, eyni zamanda, vergi hesabatlarının, bəyannamələrinin və dövriyyələrinin hazırlanması, vergi yoxlamalarının həyata keçirilməsi və mürəkkəb vergi məsələləri üzrə məsləhətlərin verilməsini də ehtiva edir.
- O, VLM-də müştərilərimizə vergi, maliyyə və mühasibatlıq xidmətləri göstərərək onların vergi uyğunluğunu və maliyyə dayanıqlılığını təmin edir.
- O, Bakı Dövlət Universitetində Tətbiqi Riyaziyyat və İqtisadi Kibernetika üzrə Bakalavr və Optimizasiya və Optimal İdarəetmə üzrə Magistr dərəcələrinə yiyələnmişdir.



Cəmilə Əlizadə

Vergi Mütəxəssisi

- Cəmilə VLM-də Vergi Departamentinin çalışqan komanda üzvüdür.
- Cəmilə əmək haqqı/ödəniş sistemləri və məzuniyyətlərin hesablanması, ikili mühasibat uçotu, bank ödənişləri, aylıq/rüblük hesabatların (ƏDV, ÖMV, VB və s.) hazırlanmasında köməklik göstərir. Bundan əlavə, o, vergilərin hazırlanması xidmətlərinin koordinasiyasında komandaya kömək edir və vergi planlaması müzakirələrində iştirak edir.
- Cəmilə ACCA - Maliyyə Mühasibatlığı (FA) Sertifikatı, ACCA -Maliyyə Hesabatı (FR) Sertifikatı, Yale Universitetindən Maliyyə Bazarları Sertifikatı və s. daxil olmaqla, beynəlxalq miqyasda tanınmış şirkətlər və universitetlərdən yüksək reytinqli təcrübələr və sertifikatlar əldə etmişdir.
- Cəmilə İqtisad Universitetində (UNEC) Maliyyə üzrə magistr (MBA) dərəcəsinə yiyələnmişdir.

# TƏKLİF ETDİYİMİZ XİDMƏTLƏR

VLM AND PARTNERS

## A. KORPORATİV VƏ KOMMERSİYA HÜQUQU

- Biz müştərilərimizin gözləntilərini doğrultmaq üçün müqavilə sahəsində tam çeşidli hüquqi xidmətlər göstərməyə çalışırıq. Buraya hər şeydən əlavə, danışıqlar prosesində yardım göstərilməsi, müqavilələrin tərtibatı, eləcə də müqavilələrdən irəli gələn mübahisələrin həll edilməsi üçün hüquqi yardım da daxildir.

- Bizim heyətimiz Sizə (i) Niyyət Məktubları və Əməkdaşlıq Memorandumları, (ii) tərəfdaşlıq və əməkdaşlıq sazişləri, (iii) distributor və françayzinq müqavilələri, (iv) kreditlər və kredit sazişləri, (v) xidmət və sığorta müqavilələri, (vi) müxtəlif növ neft və qaz xidmətləri müqavilələri, (vii) idarəetmə müqavilələri, (viii) tikinti və texniki xidmət müqavilələri, (ix) məxfi məlumatların açıqlanmaması haqqında müqavilələr, (x) brokerlik və agentlik müqavilələri, (xi) alqı-satqı və icarə müqavilələri, (xii) xidmət və işəgötürmə müqavilələri və bir çox digər müqavilə və sənədlərlə əlaqədar danışıqlar aparılmasında, eləcə də həmin sənədlərin tərtib olunmasında və nəzərdən keçirilməsində köməklik göstərəcək.

- Biz, bağlanmış müqavilələrdən irəli gələn öhdəliklərin pozulması ilə əlaqədar məsələlərdə qarşı tərəfin qarşısında öz müştərilərimizi təmsil edərək onların mənafeyini müdafiə edirik.

- Biz müştərilərimizə korporativ hüququn bütün aspektləri ilə əlaqədar xidmətlər göstəririk. Bunlara daxildir: (i) hər hansı hüquqi formada, o cümlədən məhdud məsuliyyətli və səhmdar cəmiyyət formasında müəssisələrin təsis edilməsi, xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin Azərbaycan Respublikasında qeydiyyatı; (ii) müxtəlif yurisdiksiyalarda birgə müəssisələrin yaradılması; (iii) korporativ dəyişikliklərin qeydiyyatı (məsələn, səhmdarın dəyişilməsi); (iv) ləğvetmə xidmətləri.

- Biz mütəmadi olaraq mürəkkəb yerli və xarici korporativ sövdələşmələrlə məşğul oluruq. Xarici hüquq şirkətləri ilə sıx əməkdaşlığımız sayəsində biz xarici yurisdiksiyalar sahəsində bilik və bacarıqlar tələb edən layihələri uğurla həyata keçirə bilirik.

- VLM korporativ idarəetmə və qanunvericiliyin tələblərinin yerinə yetirilməsi məsələlərinin həlli ilə də məşğul olur. Biz Sizin biznesinizə uyğun şəkildə korporativ idarəetmə və qanunvericiliyin tələblərinin yerinə yetirilməsi məsələlərinin idarə olunmasına dair materiallar tərtib edə bilərik.

# TƏKLİF ETDİYİMİZ XİDMƏTLƏR (DAVAMI)

VLM AND PARTNERS

## B. BİRLƏŞMƏLƏR VƏ SATINALMALAR

- VLM-in hüquqşünasları öz müştərilərinə tam çeşidli biznes məsələləri, o cümlədən, müəssisələrin birləşməsi, birgə müəssisələr, borc və nizamnamə kapitalı, idarəetmə və korporativ məsələlər ilə əlaqədar məsləhətlər verirlər.

- Bir sıra layihələrə cəlb olunmaqla, biz mürəkkəb yerli, xarici və çox yurisdiksiyalı sövdələşmələrlə əlaqədar biznes yönümlü hüquqi yardım xidmətləri göstəririk. Müəssisəmiz alıcıların, satıcıların, maliyyə məsləhətçilərinin və səhmdarların təmsil olunması sahəsində böyük təcrübəyə malikdir.

- VLM-in xidmətlərinə (i) müəssisələrin hərtərəfli yoxlanılması; (ii) inhisar və digər tənzimləyici məsələlərlə əlaqədar məsləhət; (iii) sövdələşmə sənədlərinin tərtib olunması, nəzərdən keçirilməsi və onlarla əlaqədar danışıqlar aparılması; (iv) müqavilələrin bağlanmasından sonrakı məsələlərə dair yardım; (v) müflis olma zamanı hüquqi yardım xidmətləri daxildir.

## C. BİZNESİN YENİDƏN TƏŞKİLİ

- Bizneslər müvafiq vergi effektivliyinə nail olmaq və insan resursları ilə əlaqədar riskləri minimum endirmək üçün effektiv vasitələrin təmin edildiyinə əmin olmaq üçün öz korporativ strukturunu vaxtaşırı nəzərdən keçirirlər. Fəaliyyətin effektivliyinə və şəffaflığına, eləcə də əməliyyat sinerjisinə və xərclərə qənaət edilməsinə nail olmaq üçün strukturun və biznesin əlverişliliyi həmişə mühüm əhəmiyyət kəsb edir.

- Effektiv və qənaətli hüquqi və vergi strukturlarının və biznes fəaliyyəti modellərinin tərtib olunması və icrası sahəsində bizim bilik və təcrübələrimiz daim öz bəhrəsini verir.

- Bizim heyətimiz Sizə və biznesinizə geniş çeşidli xidmətlər, o cümlədən (i) biznesin ötürülməsi; (ii) birləşmədən sonrakı inteqrasiya; (iii) qruplaşma / və əksi; (iv) təchizat zəncirinin ötürülməsi; (v) müəssisənin səmərələşdirilməsi və (vi) ümumi korporativ strukturlaşma sahəsində xidmətlər göstərirlər.

- Bazar qiyməti:
  Hüquqi xidmətlərdən əlavə, bizim heyətimiz Sizin şirkətinizin yenidən təşkilinin həyata keçirilməsi üçün tələb olunan transfer qiymətinin hesablanması və qiymətləndirmə xidmətləri təqdim edə bilər.

# TƏKLİF ETDİYİMİZ XİDMƏTLƏR (DAVAMI)

## D. LAYİHƏLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİ

- Bizim heyətimiz beynəlxalq maliyyə təşkilatlarından və xarici banklardan tutmuş yerli şirkətlərədək maliyyə xidmətlərinin göstərilməsi sahəsində geniş miqyaslı təcrübəyə malikdir. Bizim heyət üzvlərimiz Azərbaycanda icra edilən ən böyük maliyyələşdirmə layihələrinə cəlb olunublar.

- VLM bu cür layihələrin icrasında yerli məsləhətçi qismində çıxış etmək üçün tələb olunan hər cür zəruri bilik və təcrübəyə malikdir. Bu əməliyyatlarda bizim göstərdiyimiz xidmətlər:

-sənədlərin nəzərdən keçirilməsi və şərh olunması;
-sənədlərin və razılaşmaların Azərbaycan qanunvericiliyinə uyğunluğuna dair müvafiq hüquqi rəyin verilməsi;
-Azərbaycan qanunvericiliyinə uyğun olaraq, bu növ sövdələşmələr üçün müvafiq hüquqi yardımın göstərilməsi;
-müvafiq korporativ təsdiq sənədlərinin nəzərdən keçirilməsi, ilkin şərtlərin toplanması və təsdiqlənməsi;
-koordinasiya; zəruri hallarda hər hansı tərcümə işlərinin icrası.

## E. KAPİTAL BAZARLARI

- VLM istər borc kapitalı, istərsə də nizamnamə kapitalı bazarlarında Sizin fəaliyyətinizə kömək etmək üçün zəruri olan dərin təcrübə və vizyona malikdir. Biz istər emitentlərə, istərsə də onların məsləhətçilərinə səhmlərin ilkin yerləşdirilməsində və təkrar buraxılışında fəal və effektiv xidmət göstərə bilərik.

- Bizim borc kapitalı bazarları üzrə ixtisaslaşmış heyətimiz geniş çeşidli kapital bazarı məhsulları ilə əlaqədar müştərilərə istər sövdələşmə, istərsə də tənzimləyici məsləhətlər verir. Müəssisəmiz Azərbaycan bazarında buraxılan istiqrazların emissiyası və geri çağırılması sahəsində böyük təcrübəyə malikdir.

# TƏKLİF ETDİYİMİZ XİDMƏTLƏR (DAVAMI)

VLM AND PARTNERS

## F. ENERJİ, NEFT & QAZ HÜQUQU

- VLM enerji, neft və qaz sənayesində fəaliyyət göstərən birgə müəssisələrin, tərəfdaşlıqların və Dövlət-Özəl Sektor Əməkdaşlığının yaradılması sahəsində, eləcə də innovativ hüquqi məsləhət xidmətlərinin göstərilməsində böyük təcrübəyə malikdir. Bizim mütəxəssislərimiz Sizə enerji və təbii ehtiyatlar sektorunun, xüsusilə də bərpa olunan enerji, neft və qaz, Hasilatın Pay Bölgüsü və digər sazişlər, elektrik enerjisi sahəsində məsləhətlər verə bilər. Müəssisəmizin bu sahədə də zəngin təcrübəsi var.
- VLM Sizin bazar və hüquqi yeniliklərlə ayaqlaşmağınıza kömək edəcək, Sizin yeni bazarlara daxil olmağınıza, öz mənafeyinizi müdafiə etməyinizə, riskləri idarə etməyinizə və biznesinizi gücləndirməyinizə yardımçı olacaq.
- Biz bu sahədə çalışan çoxsaylı müəssisələrə, o cümlədən aparıcı enerji, neft və qaz müəssisələrinə, kiçik enerji şirkətlərinə, inkişaf banklarına, podratçılara və hökumət orqanlarına bu sektordan irəli gələn geniş çeşidli məsələlərlə əlaqədar məsləhət xidmətləri göstəririk.
- Bizim fəaliyyətimiz neft, qaz və bərpa olunan enerji sektorunun yuxarı, orta və aşağı əməliyyatlar üçün mürəkkəb hüquqi, maliyyə və kommersiya məsələlərini ehtiva edir.

## G. ƏMƏK VƏ MİQRASİYA HÜQUQU

- VLM öz müştərilərinə insan resursları və əmək hüququ sahəsində geniş çeşidli autsorsinq məsləhət imkanları vəd edir. Xidmətlərimiz məhdudiyyətsiz olaraq, (i) İnsan Resursları proseslərinin təşkili, (ii) əmək müqavilələrinin hazırlanması və qeydiyyatı, (iii) əmək müqavilələrinə əlavə və dəyişikliklərin hazırlanması və qeydiyyatı, eləcə də onların ləğv olunması; (iv) əmək hüququ məsələlərinə dair məsləhətləşmələr; (v) əmək yoxlamaları zamanı müəssisələrə dəstək və (vi) əmək mübahisələrinin həlli üzrə xidmətləri ehtiva edir.
- VLM-in mütəxəssisləri işçi qüvvələrinin strukturlaşdırılması məsələlərinin (beynəlxalq təcrübə keçilməsi, ikili əmək yeri, ezamiyyət və s.) icrasında öz hüquqi dəstəyini təklif edir və müştərilərdə insan resursları və əmək qanunvericiliyinə əməl olunmanın ətraflı təhlilini aparırlar. Hüquqşünaslarımız bir neçə yerli və xarici şirkətlərə işçilərin ixtisarı məsələlərində dəstək göstərmişdir.
- Biz Azərbaycanda əmək fəaliyyəti ilə məşğul olacaq əcnəbilərin iş və yaşayış icazəsi əldə etməsi üçün Sizə hüquqi həllər təklif edirik.

# TƏKLİF ETDİYİMİZ XİDMƏTLƏR (DAVAMI)

VLM AND PARTNERS

## H. MÜBAHİSƏLƏRİN HƏLLİ, ARBİTRAJ VƏ MEDİASİYA

- Güclü hüquqşünas heyətinə malik olan VLM öz müştərilərini Azərbaycan Respublikasının bütün məhkəmə instansiyalarında təmsil edir, onlara məsləhətlər verir və mübahisələrin sülh yolu ilə həll olunması məqsədi ilə aparılan danışıqlarda müştərilərə yardım göstərir.
- VLM müştərilərə risklərdən və mümkün hüquqi mübahisələrdən hər vəchlə yayınmaq üçün yardım göstərir. Hüquqi mübahisələrlə bağlı məsləhət və təmsilçiliyin bütün mərhələlərində, VLM, hər mübahisəni hüquqi, kommersiya, idarəçilik və reputasiya baxımından təhlil edir və müştərilərin kommersiya hədəflərinə çatmaq imkanı, bu yolda ən optimal prosedural yanaşma və sövdələşmə şərtlərini nəzərdən keçirir.
- Biz xarici məhkəmələrin qərarlarının Azərbaycan Respublikasında tanınması və icrası ilə bağlı bütün mərhələlərdə hüquqi məsləhət və dəstək təklif edirik.
- Tərəfdaş şirkətlərimizlə birlikdə, yerli və qlobal təcrübəni birləşdirərək, biz arbitraj, mediasiya və mübahisələrin həlli üzrə peşəkar xidmətlər təqdim edirik.

## I. TAM HÜQUQİ AUTSORSİNQ

- Bir çox müəssisələr biznes mühitində öz rəqabət qabiliyyətini qoruyub saxlamaq məqsədi ilə xərclərini azaltmağa və əsas məqsədlərə daha çox vaxt ayırmağa üstünlük verirlər. Buna görə də autsorsinq əksər müəssisələrin öz biznesini genişləndirmək məqsədi ilə həyata keçirdiyi ən birinci və bir çox hallarda isə başlıca tədbirdir.
- VLM, heyətində hüquqşünas olan və olmayan müştərilər üçün gündəlik, yaxud səciyyəvi hüquqi məsələlərini həll edir, müxtəlif hüquqi layihələri həyata keçirir.
- Müəssisəmiz, biznes sahəsində lazımınca ixtisaslaşmış hüquqşünasların köməyi ilə müştərilərin hüquqi tələbatlarının yerinə yetirilməsi üçün innovativ yanaşmalar təklif edir – hüquqşünaslarımız öz güclü təcrübəsindən və yüksək bacarığından istifadə edərək müştərinin biznesinin hüquqi aspektlərini analiz edirlər. Autsorsinq xidmətlərinə (i) müqavilələrin tərtib olunması və müzakirə edilməsi, (ii) əqli mülkiyyət məsələlərinin idarə olunması, (iii) tənzimləyici işlər, (iv) əlverişli şərtlərlə əmək və insan resursları məsələləri daxildir.
- Autsorsinq xidmətləri vasitəsi ilə VLM-in hüquqşünasları Sizin biznes modelinizlə tanış olub, təşkilati tələblərinizi müəyyən edərək Sizin heyətinizin etibarlı üzvünə çevrilir.

# TƏKLİF ETDİYİMİZ XİDMƏTLƏR (DAVAMI)

VLM AND PARTNERS

## J. ƏQLİ MÜLKİYYƏT

- Bizim heyətimiz əqli mülkiyyət hüququnun bütün aspektləri ilə əlaqədar yerli və beynəlxalq səviyyədə müştərilərə məsləhətlər verir.

- VLM əqli mülkiyyət hüququ sahəsində aşağıdakı xidmətləri həyata keçirir:

-əqli mülkiyyət obyektlərinin hüquqi qeydiyyatı;
-qeydiyyatdan keçmiş obyektlərin qeydiyyat müddətinin uzadılması;
-əqli mülkiyyət hüququ ilə bağlı əməliyyatlar, əqli mülkiyyət obyektlərinin alğı-satqısı, girovu, ötürülməsi və vərəsəliyi;
-əqli mülkiyyətin müdafiəsi məsələləri ilə üzrə müştərilərin təmsil edilməsi;
-əqli mülkiyyətin qiymətləndirilməsi, lisenziyalaşdırma, əqli müllkiyyət hüquqlarından qanunsuz istifadə, pirat və kontrafakt məhsullarlarla mübarizədə məsləhətlərin verilməsi.

## K. İSTEHLAK BAZARLARI

- VLM dünyanın bir çox tanınmış markaları, məşhur brendlər və avtomobil istehsalçıları, qida və istehlak malları istehsalçıları, eləcə də topdan və pərakəndə satıcıları ilə çalışır və onlara istehlak, pərakəndə satış, avtomobil, istirahət və digər sahələr ilə əlaqədar məsləhətlər verir.

- Hüquqşünaslarımız geniş miqyaslı təcrübələri əsasında antiinhisar, haqsız rəqabət, vergi, korporativ və s. daxil olmaqla bütün hüquq sahələrində müştərilərə effektiv hüquqi həllər təklif edir.

- VLM Sizə (i) Antiinhisar Dövlət Komitəsinin yoxlama və araşdırmaları zamanı məsləhətlərin verilməsi, (ii) haqsız rəqabət, rəqabətə qarşı müqavilələr və üstün mövqedən sui-istifadə ilə bağlı hüquqi yardımın göstərilməsi, (iii) rəqabətlə əlaqəli mübahisələrin məhkəmə yolu ilə həlli, (iv) müqavilələrin, malların etiketlənmə və istifadə qaydalarının, müəssisədaxili qaydaların və digər sənədlərin rəqabət qanunvericiliyinə uyğunluğunun təhlil edilməsi, (v) müəssisələrin rəqabət qaydalarına və qanunvericiliyə uyğunluğunun yoxlanılması, daxili sənədlərin hazırlanması və daxili uyğunluq prosedurlarının həyata keçirilməsi, (vi) təbii inhisarlar və tarif tənzimlənməsi, (vii) dövlət satınalmaları, (viii) məhsulun distributorluğu və istehsalı sahəsində rəqabət aspektləri ilə bağlı hüquqi yardım etməyə hazırdır.

# TƏKLİF ETDİYİMİZ XİDMƏTLƏR (DAVAMI)

## L. VERGİ VƏ MÜHASİBATLIQ

- Biznesin idarə edilməsində vergi məsələlərinə nəzarət və mühasibatlıq mühüm rol oynayır. Belə nəzarət və düzgün mühasibatlıq zamanı gəlir və xərcləri izləmək və onların qanuna uyğunluqlarını təmin etmək, investorlara, idarəedicilərə biznes qərarlarının qəbul edilməsi habelə dövlət orqanlarına məlumatın düzgün çatdırılması baxımından mühümdür. VLM komandası tərəfindən göstərilən mühasibatlıq və vergi xidmətləri şirkətlərin yuxarıdakı ehtiyaclarını ödəyir və onların bizneslerini idarə etmək və gələcəyi planlaşdırması üçün imkan yaradır. Bizim peşəkarlarımızla əməkdaşlıq Sizə mühasibat uçotu səhvləri minimuma endirməyə, yüksək iş yüklərinin öhdəsindən gəlməyə, proqnozlarla və risklərin azaldılması ilə sürətli və səhvsiz əməliyyatlar aparmağa imkan verir.

- VLM-in təklif etdiyi mühasibatlıq və vergi qanunvericiliyinin yerinə yetirilməsi xidmətlərinə daxildir:

-uçot xidmətləri;
-vergi və mühasibatlığın idarə edilməsi;
-hesablaşmaların sənədləşməsi;
-pul köçürmələrinin icrası;
-əmək haqqı prosesləri;
-vergi məsləhətləri;
-vergi hesabatları və ƏDV bəyannamələri;
-risk ödənişlərinin tədqiqi;
-təchiz edilmiş ödənişlərin üzləşdirməsi;
-mühasibat uçotu və maliyyə proseslərinin hesabatı, idarəsi və nəzarəti;
-vergi yoxlamaları zamanı müştəriyə dəstək.

# BİZİMLƏ ƏLAQƏ




VLM and Partners MMC
Hyatt Beynəlxalq Mərkəzi, Hyatt Tower 2, 6-cı mərtəbə, 8 İzmir küçəsi, AZ 1065 Bakı, Azərbaycan

Vebsayt
www.vlm-az.com

E-poçt
vmammadov@vlm-az.com

+994 12 490 75 59
+994 50 546 55 63

© 2023 VLM Bütün haqlar qorunur. VLM Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təsis edilmiş VLM AND PARTNERS məhdud məsuliyyətli cəmiyyətinin qısaldılmış adıdır. VLM müxtəlif sahələri təmsil edən dövlət və özəl sektora aid müəssisələrə hüquq, vergi, İnsan Resurslarının idarə edilməsi və orta və üst təbəqə rəhbərlərə fərdi koçluq xidmətləri verir.